BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2014*

**UOT 349:336.12;347.73**

# DÖVLƏT BÜDCƏSİNİN KASSA İCRASININ HÜQUQİ ƏSASLARI

**A.O.QƏHRƏMANOVA**
***Bakı Dövlət Universiteti***
***almaz.qahramanova@gmail.com***

*"Büdcə sistemi haqqında" Qanunun tələblərinə əsasən dövlət büdcəsinin kassa icrası dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilir. Dövlət xəzinədarlığı dövlət maliyyəsindən istifadə sahəsində şəffaflığı təmin etmək məqsədilə dövlət büdcəsindən maliyyələşən bütün idarə, müəssisə və təşkilatlar üzrə maliyyə əməliyyatlarının müvafiq uçot qaydalarına uyğun uçotunu aparır.*

**Açar sözlər:** dövlət xəzinədarlığı, dövlət büdcəsi, büdcənin kassa icrası, büdcə təsnifatı, maliyyə əməliyyatları, büdcə təşkilatı

Büdcə dövlətin maliyyə fəaliyyətinin həyata keçirilməsinin əsas forması olmaqla, dövlət həyatının bütün sahələrində mühüm əhəmiyyətə malikdir. Dövlətin istənilən funksiyalarının həyata keçirilməsi zamanı yaranan ilk suallar həmin tədbirlərə hansı həcmdə, nə vaxt və hansı qaydada vəsaitin ayrılması olur.

Büdcə elə bir fenomendir ki, iqtisadi elmlər tərəfindən öyrənilən münasibətlərdə olduğu kimi, maliyyə hüququnun predmeti olan ictimai münasibətlərdə də iştirak edir. Bu eyni zamanda həm dövlət (bələdiyyə) qarşısında duran vəzifələrin yerinə yetirilməsinin maliyyə plan-proqnoz əsası, həm də büdcə təşkilatlarının maliyyə planını təsdiq edən normativ hüquqi aktı əhatə edən bir anlayışdır (7, 133). Başqa sözlə, iqtisadi nöqteyi-nəzərdən, büdcə maliyyə vəsaitlərinin mərkəzləşdirilmiş fondu, hüquqi cəhətdən isə dövlət təşkilatlarının maliyyə fəaliyyətinin həyata keçirilmə formasıdır və iqtisadi və ya hüquqi mahiyyətindən kənarlaşdırmaq bu anlayışın tamlığına xələl gətirə bilər.

Dövlət büdcəsi ayrıca prosessual normalarla müşayiət olunan, hazırlanması, təsdiqi və icrası kimi bir neçə mərhələdən ibarət olan maliyyə sənədidir. Bu mərhələlərdən sözsüz ki, ən mühümü büdcənin icrası mərhələsidir. Çünki əgər bu proses baş verməsə və ya öz təyinatından yayınsa, əvvəlki proseslər heç bir əhəmiyyət daşımayacaqdır. Dövlət vəsaitlərinin səmərəli, qənaətlə, təyinatına

uyğun xərclənməsi məhz büdcənin icrasının təşkilinin səviyyəsindən asılıdır.

Büdcənin icrası prosesinin büdcə prosesinin bir mərhələsi olması ilə əlaqədar yaranan münasibətlər nöqteyi-nəzərdən büdcə - müvafiq prosesin iştirakçıları üçün məcburi qüvvəyə malik olan maliyyə-planı kimi çıxış edir.

Azərbaycan Respublikasında büdcə sisteminin təşkilinin, habelə büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu müəyyən edir.

Həmin Qanunun 18.1-ci maddəsinə əsasən dövlət büdcəsi müvafiq icra hakimiyyəti orqanları, onların tabeliyindəki təşkilatlar tərəfindən dövlət xəzinədarlığı vasitəsi ilə icra edilir. Dövlət büdcəsindən maliyyələşən təşkilatların vəzifəli şəxsləri tabeliyində olan müəssisələrin həyata keçirdikləri maliyyə əməliyyatlarına, xərc normalarına və müvafiq maliyyə qaydalarına riayət etməmələrinə görə məsuliyyət daşıyırlar.

"Büdcə sistemi haqqında" Qanunun tətbiqi barədə Fərmana uyğun olaraq sözügedən maddədə nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»na Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları aid edilir.

Dövlət büdcəsinin kassa icrası anlayışının və şərtlərinin əks olunduğu ən yüksək hüquqi akt da məhz həmin Qanundur. Adı çəkilən Qanunun tələblərinə əsasən dövlət büdcəsinin kassa icrası büdcə gəlirlərinin büdcəyə daxil olmasını və xərclərinin büdcə təsnifatına uyğun olaraq xəzinədarlıq vasitəsilə ünvanlı istifadəsini təmin edən icra mexanizmidir (2).

Qanunvericiliyin sadalanan müddəalarının tələblərindən təhlil etmək mümkündür ki, dövlət büdcəsinin icrası və büdcənin kassa icrası anlayışları mahiyyətcə fərqlidir. Belə ki, dövlət büdcəsi vəsaitlərinin baş kredit sərəncamçıları (istifadəçiləri) Milli Məclis tərəfindən onlara bölüşdürülmüş vəsaitləri müvafiq xərc normativləri üzrə sərf etməklə büdcənin icrasını təmin edirlər.

Lakin büdcənin icrası prosesində baş kredit sərəncamçıları onlara ayrılmış vəsaitləri xüsusi səlahiyyətli orqanlar vasitəsilə son təyinatına çatdırırlar. Bu proses büdcənin kassa icrası adlanır.

Hər ilin dövlət büdcəsi qanunvericiliklə müəyyən edilmiş prosedurlara uyğun olaraq hazırlanır Milli Məclis tərəfindən təsdiq edildikdən sonra onun göstəriciləri, gəlir və xərclərin bölgüsü səlahiyyətli dövlət orqanı tərəfindən bir ay müddətində büdcə təşkilatlarına çatdırılır və bununla da dövlət büdcəsinin icrasına, o cümlədən büdcənin kassa icrasına başlanılır.

Büdcənin xəzinədarlıq sistemində icrasını həyata keçirmək üçün müəyyən edilmiş funksiyaların reallaşdırılması aşağıdakı prinsiplərdən birbaşa asılıdır:

- vahid hesab prinsipi;
- vahid kassa prinsipi;
- büdcə xərcləri və ödənişlərinin vahid hesabdakı faktiki vəsaitlər dairəsində təmin edilməsi prinsipi;
- büdcə gəlirlərinin icrası prinsipi;
- büdcənin icrasının uçotu prinsipi;

- büdcə xərclərinin razılıq əsasında icrası prinsipi;
- büdcənin icrasının hesabatlılıq prinsipi.

Qeyd edilən prinsiplərin xəzinədarlığın fəaliyyətində əhəmiyyətli rol oynadığı əsaslandırılmış və eyni zamanda büdcə xərclərinin icrası zamanı bank vasitəsi ilə yalnız xəzinə hesabı olmayan təşkilatlara ödənişlərin aparılması üçün əlavə olaraq “Xəzinədaxili əməliyyatların banksız icrası prinsipi”nin tətbiqinin vacibliyi xüsusi olaraq vurğulanmalıdır (9, 14,15).

Dövlət büdcəsinin kassa icrası prosesinin mahiyyətini tam açıqlamaq üçün, ilk növbədə, büdcə gəlirləri və büdcə xərcləri anlayışlarına qısaca nəzər yetirmək zəruridir.

Dövlət büdcəsinin vəsaitləri öz mahiyyətinə və təyinatına görə dövlət büdcəsinin: 1) mərkəzləşdirilmiş gəlir və xərclərinə; 2)yerli gəlir və xərclərinə bölünür.

Büdcənin gəlirləri vergi qanunvericiliyi ilə müəyyən edilmiş dövlət vergilərindən, əvəzsiz olaraq xarici və daxili mənbələrdən daxil olan vəsaitlərdən (qrantlardan), dövlət orqanları tərəfindən göstərilən hüquqi hərəkətlərə görə qanunla müəyyən edilmiş dövlət rüsumu və digər gəlirlərdən ibarətdir. Dövlət büdcəsinin xərclərinə isə əmək haqqı, pensiya və başqa sosial ödənişlər, dövlət təşkilatları üçün malların satın alınması, qrantlar, subsidiyalar, habelə əsas vəsaitlərin alınması və kapital (investisiya) qoyuluşları üzrə xərclər daxildir.

Həmin xərclər müəyyən bir qanunauyğunluq şəklində qruplaşdırılmalı, tərtibi, xüsusilə də icrası dövründə dəqiqliyin təmin edilməsi zəruridir.

Qanunverivicilik dövlət büdcəsinin kassa icrası prosesində büdcə məlumatlarının bütün səviyyələrdə müqayisəliliyinin təmin edilməsi üçün onun vahid büdcə təsnifatı əsasında formalaşdırılmasını tələb edir.

Büdcə təsnifatı dedikdə – büdcənin gəlirlərinin və xərclərinin funksional, iqtisadi və digər prinsiplər əsasında qruplaşdırılması başa düşülür. Büdcə təsnifatına dövlət büdcəsinin gəlirlərinin təsnifatı, büdcə xərclərinin funksional təsnifatı, büdcə xərclərinin iqtisadi təsnifatı, dövlət büdcəsi kəsirinin daxili və xarici maliyyələşdirmə mənbələrinin təsnifatı, dövlətin daxili və xarici borcunun növlər üzrə təsnifatı, dövlət büdcəsi xərclərinin təşkilatlar üzrə təsnifatı daxildir.

1992-ci ilədək Azərbaycan Respublikasında büdcələrin kassa icrasını Azərbaycan Respublikasının Milli Bankı və onun yerlərdəki idarələri, belə idarələr olmadıqda isə onun tapşırığı ilə başqa bank həyata keçirirdi. Milli Bank və onun idarələri büdcə təsnifatına uyğun olaraq respublika büdcəsinin və yerli büdcələrin mədaxilini və məxaricini uçota alır və bu büdcələrin kassa icrasına dair hesabat tərtib edirdilər.

Lakin bazar iqtisadiyyatına keçid, maliyyə sahəsində həyata keçirilən islahatlar Azərbaycan Respublikasında dövlətə məxsus maliyyə ehtiyatlarının vahid mərkəzdən idarə edilməsini təmin etmək, bu vəsaitlərin daxil olması və xərclənməsi üçün daha çevik nəzarət mexanizmini yaratmaq zərurəti büdcənin icrasına daha mütərəqqi metodun tətbiqini labüd edirdi.

Hazırda qüvvədə olan "Büdcə sistemi haqqında" Qanunun 19-cu maddəsinə əsasən dövlət büdcəsinin kassa icrası dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilir. Dövlət xəzinədarlığı dövlət maliyyəsindən istifadə sahəsində şəffaflığı təmin etmək məqsədilə dövlət büdcəsindən maliyyələşən bütün idarə, müəssisə və təşkilatlar üzrə maliyyə əməliyyatlarının müvafiq uçot qaydalarına uyğun uçotunu aparır.

Həmin müddəa həmçinin müəyyən edir ki, dövlət büdcəsinə bütün daxilolmalar və ödəmələr, büdcədənkənar haqlar (ödənişlər), büdcədənkənar dövlət fondları (Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri, əməliyyat xərcləri, beynəlxalq banklarda və digər maliyyə institutlarında vəsaitin yerləşdirilməsi ilə bağlı xərclər istisna olmaqla) dövlət büdcəsinin kəsirinin bağlanması üçün dövlət zəmanəti ilə alınmış borclar üzrə əməliyyatlar və digər dövlət maliyyə əməliyyatları qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq dövlət xəzinədarlığı vasitəsilə icra edilir.

Beləliklə də, büdcənin xəzinə icrası büdcə gəlirlərinin vahid xəzinə hesabında cəmləşdirilməsi, xəzinədarlıq tərəfindən büdcə vəsaiti sərəncamçıları adından onların xəzinədarlıqda açılmış hesablaşma hesabları vasitəsilə xərc öhdəliklərinin yerinə yetirilməsi və eləcə də dövlət maliyyəsini əhatə edən bütün əməliyyatların uçotunu özündə əks etdirən icra prosesidir (9, 15).

Azərbaycan Respublikasında dövlətə məxsus maliyyə ehtiyatlarının vahid mərkəzdən idarə edilməsini təmin etmək, bu vəsaitlərin daxil olması və xərclənməsi üçün daha çevik nəzarət mexanizmini yaratmaq, dövlət borclarının, zəmanətlərin və alınmış kreditlərin uçotunu yaxşılaşdırmaq və respublikada qiymətli kağızlar bazarının formalaşmasını sürətləndirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 4 oktyabr 1995-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasında dövlət xəzinədarlığı yaradılmışdır. Həmin Fərmana əsasən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı, Naxçıvan Muxtar Respublikasında, respublikanın şəhər və rayonlarında onun ərazi orqanlarının yaradılması qərara alınmışdır (6).

Ümumilikdə, Azərbaycan Respublikasında xəzinədarlıq sisteminin formalaşması uzun zaman tələb etməsi və bu sistemin əhatə dairəsinin geniş olması, maddi-texniki təchizata ehtiyac, yeni innovasiyaların mənimsənilməsi, kadr potensialının inkişaf etdirilməsi sistemin tətbiqinin mərhələli şəkildə həyata keçirilməsi zərurətini yaratmışdır. Bu sistem xəzinədarlığın formalaşmasında və xəzinə uçotunun təşkilində əhəmiyyətli rol oynayan bir neçə ardıcıl mərhələdə həyata keçirilmişdir.

Həmin mərhələləri aşağıdakı kimi təsnifləşdirmək olar:

1. 1995-1997-ci illər-Xəzinədarlığın ilkin formalaşması mərhələsi-Maliyyə Nazirliyində və respublikanın rayonlarında xəzinədarlığın struktur orqanları yaradılmış, təşkilatların sayı və onların büdcə, məqsədli büdcə fondları və büdcədənkənar vəsait hesablarının inventarizasiyasını əhatə etmişdir. Bu mərhələdə, büdcənin icrasının və onun xəzinə uçotunun kassa metoduna əsaslanan yeni mexanizm formalaşmış və artıq bank strukturları, büdcə təşkilatları və xə-

zinə orqanları arasında informasiya mübadiləsinin yeni formaları müəyyənləşdirilmişdir.

2. 1997-1999-cu illər - Vahid xəzinə hesabının və büdcənin xəzinə icrasının yeni uçot sisteminin tətbiqi mərhələsi xəzinədarlıq sisteminin inkişafında, xüsusən də yeni bank münasibətlərinin yaradılması, maliyyələşmə və xərc proseslərinin daha çevik mexanizminin tətbiqi baxımından çox vacib dövr hesab edilir. Bu mərhələdə respublikanın bütün rayon və şəhərlərində beş mindən artıq büdcədən maliyyələşən təşkilatın 10000-ə qədər büdcə və büdcədənkənar vəsaitləri üzrə bank hesabları bağlanaraq həmin hesablardakı vəsaitlər vahid xəzinə hesabına toplanmışdır. Qeyd olunan mərhələni Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 31 avqust 2000-ci il tarixli İ-136 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Xəzinədarlıq sisteminin tətbiqi Qaydaları" (II mərhələ) ilə tənzimləmişdir.

3. 1999-2000-ci illər - Maliyyə planlaşdırması və öhdəliklərin qəbulu mərhələsi büdcə xərclərinin aparılması məqsədilə əvvəlcədən qısamüddətli gəlir proqnozlarının tərtib edilməsini və xərc əməliyyatlarının büdcə təxsisatları çərçivəsində aparılmasını təmin etmək üçün öhdəliklərin qəbul edilməsini əhatə edir. Xəzinədarlıq sistemində qısamüddətli maliyyə planlaşdırılmasını həyata keçirmək üçün bu sistemin tam avtomatlaşdırılması, informasiya axınının daxilolma sürətinin maksimum olması zəruridir.

4. 2000-2006-cı illər - Mal (iş və xidmətlərin) alışı sənədinin tətbiqi mərhələsi büdcə təşkilatları tərəfindən bağlanan müqavilələrdə nəzərdə tutulmuş şərtlər daxilində alınan malların, qəbul olunmuş iş və xidmətlərin xəzinə uçotuna qəbul edilməsi mexanizminin tətbiqini əhatə edir. Bu mərhələ büdcədən maliyyələşən təşkilatlarda debitor-kreditor borcların yaranması faktiki xərclərin aparılmasında müəyyən dərəcədə nəzarətin təmin olunması üçün əhəmiyyətli rola malikdir. Öhdəlik və mal alışı sənədlərinin xəzinədarlıq tərəfindən qəbul edilməsi dövlətin həmin sənədlər üzrə müvafiq öhdəlikləri öz üzərinə götürməsi deməkdir. Ona görə də, hər iki sənədin tələblərini özündə birləşdirən konkret mexanizmin hazırlanması daha səmərəli nəticə verə bilər.

Xəzinədarlığın tətbiqinin III və IV mərhələləri üzrə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 28 dekabr 2000-ci il tarixli İ-193 nömrəli əmri ilə təsdiq edilmiş "Büdcədən maliyyələşən kredit sərəncamçıları tərəfindən alınan malların, qəbul olunan iş və xidmətlərin xəzinə uçotu haqqında" və "Dövlət büdcəsinin xərcləri üzrə öhdəliklərin qəbul olunması haqqında" Təlimatları xüsusilə vurğulamaq olar. Bu təlimatlar büdcənin kassa icrasının təşkilati və texniki əsaslarını hüquqi cəhətdən tənzimləmişdir.

5. 2006-cı ildən başlayaraq davam edən - Xəzinədarlığın avtomatlaşdırılması mərhələsi xəzinədarlıq sisteminin inkişafında keyfiyyət baxımından mühüm əhəmiyyət kəsb edən dövr hesab edilir. Bu mərhələ bütün xəzinə əməliyyatlarının avtomatlaşdırılmasını, mərkəzi xəzinədarlıqla yerli xəzinədarlıq orqanları və xəzinədarlıqla bank arasında münasibətlərin elektron bağlantılarla tənzimlənməsini nəzərdə tutan informasiya sisteminin formalaşmasını əhatə edir.

Hal-hazırda Dövlət Xəzinədarlığı Agentliyi və büdcə təşkilatları arasında Xəzinədarlığın İnformasiya İdarəedilməsi Sistemi (XİİS) vasitəsilə aparılan xəzinə əməliyyatlarına dair sənədlərin elektron qaydada təqdim olunmasının və baxılmasının təşkil edilməsi məqsədilə müvafiq proqram təminatı ("Xəzinədarlığın İnformasiya İdarəetmə Portal"ı- XİİP) yaradılmışdır.

Bununla da xəzinə xidmətinin keyfiyyətinin artırılmasına, büdcə xərclərinin və daxilolmalarının icra mexanizminin təkmilləşdirilməsinə, həmçinin büdcə təşkilatlarının xəzinə hesablarında aparılan xəzinə əməliyyatlarının real vaxt rejimində izlənilməsinə və bu əməliyyatlar üzərində operativ nəzarətin həyata keçirilməsinə nail olunmuşdur.

Kağız daşıyıcılarında sənəd dövriyyəsinin azaldılması və büdcə icrasının operativliyinin təmin olunması üçün 2014-cü ildə elektron portalın funksionallığı genişləndirilmiş və təşkilatlarla yerli maliyyə orqanları və xəzinədarlıq idarələri arasında xərc sənədlərinin dövriyyəsi imkanı yaradılmışdır (10).

Belə ki, xəzinədarlıq orqanlarında xidmət olunan təşkilatlar tərəfindən onlara təqdim olunması nəzərdə tutulan müvafiq sənədlər elektron imza ilə təsdiq edilərək Xəzinədarlığın İnformasiya İdarəetmə Portalı vasitəsi ilə XİİS-ə daxil olması üçün göndərilir və XİİP proqram təminatında əməliyyatların statusu (gedişi) izlənilir.

Dövlət büdcəsinin kassa icrası prosesində bu prosesi həyata keçirən dövlət xəzinədarlıq orqanları onlara təqdim edilmiş maliyyələşmə üzrə sifarişlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli, 149 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vahid büdcə təsnifatı"nın bölmə, yarımbölmə, maddə və yarımmaddələrinə uyğun olaraq tərtib edilməsinə ciddi şəkildə nəzarət edirlər.

Bildiyimiz kimi, dövlət büdcəsinin gəlirləri və xərcləri arasında maksimum dərəcədə balans yaratmaq son nəticədə büdcənin tam icra olunmasını təmin etməyin əsas şərtidir (1, 118).

Dövlət Xəzinədarlığı Agentliyi və onun yerli qurumları büdcə vəsaitlərinin baş kredit sərəncamçılarının sifarişlərini əsas tutaraq və büdcəyə daxilolmaların vəziyyətindən asılı olaraq onları maliyyələşdirir. Yəni müəyyən müddət ərzində dövlət büdcəsinə daxilolmalar azalarsa, büdcənin kassa icrasını həyata keçirən qurum həmin təşkilatın xərc əməliyyatlarını azalda bilər.

Dövlət büdcəsindən maliyyələşən təşkilatlar əldə etdikləri büdcə və büdcədənkənar gəlirləri qısa müddət ərzində vahid xəzinə hesabına köçürməlidirlər. Dövlət xəzinədarlığının vahid xəzinə hesabının idarə edilməsi və bu hesabdan vəsaitin silinməsinə sərəncam verilməsi ilə bağlı müstəsna səlahiyyəti vardır. Dövlət xəzinədarlığının razılığı olmadan bu hesabdan hər hansı formada vəsaitin köçürülməsi və ya götürülməsi qadağandır.

Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2009-cu il tarixli, 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi haqqında Əsasnamə"yə uyğun olaraq dövlət büdcəsinin kassa icrasını və həmin maliyyə əməliyyatlarının uçotunun

aparılmasını, büdcə xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəliklərin qəbul edilməsini, dövlətə məxsus maliyyə vəsaitlərinin vahid mərkəzdən idarə edilməsini, bu vəsaitlərin daxil olması və məqsədyönlü xərclənməsi sahəsində cari nəzarəti Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi həyata keçirir (3).

Qeyd edilməlidir ki, "Azərbaycan Respublikası Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən Mərkəzi Bank müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış şərtlərlə dövlət xəzinədarlıq hesablarına xidmət göstərir.

Həmin Qanunun tətbiq edilməsi barədə Fərmana əsasən sözügedən maddədə nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanının" səlahiyyətlərini Azərbaycan Respublikası Maliyyə Nazirliyi həyata keçirir.

Digər tərəfdən Dövlət Xəzinədarlığı Agentliyinə və onun tabeliyində olan qurumlara dövlət büdcəsindən ayrılan vəsaitlərin ödənişi üçün əsas olan təsdiqedici sənədlərin mövcud qanunvericiliyə uyğunluğuna, habelə büdcə təşkilatları tərəfindən malların (işlərin və xidmətlərin) satın alınması haqqında hüquqi aktların tələblərinə riayət edilməsinə operativ nəzarəti təmin etmək barədə səlahiyyətlər verilmişdir.

Göstərilənlərlə yanaşı, qanunvericilik sisteminə daxil olan digər hüquqi aktlarda, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarlarında dövlət büdcəsinin kassa icrasına da müddəalar təsbit edilmişdir. Belə ki, 2004-cü il 24 may tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"na uyğun olaraq büdcə xərclərinin kassa icrası üçün xəzinədarlıq tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən təşkilatlar və dövlət xərclərinin həyata keçirilməsini təmin edən orqanlar qarşısında mövcud qaydalara uyğun olaraq dövlət öhdəlikləri qəbul edilir, bu öhdəliklər uçota alınır və dövlət büdcəsinin icrası haqqında dövri hesabatlara daxil edilir.

Yuxarıda istinad edilmiş "Azərbaycan Respublikasında Xəzinədarlıq sisteminin tətbiqi Qaydaları" (II mərhələ) Dövlət Xəzinədarlığı Agentliyi ilə Mərkəzi Bank, müvəkkil kredit banklar, baş kredit sərəncamçıları və onların tabeliyində büdcə təşkilatları ilə münasibətləri tənzimləyir.

Qaydalara əsasən Agentlik ilə Mərkəzi Bank və Maliyyə Nazirliyi tərəfindən müəyyən edilmiş müvəkkil banklar arasında ayrıca müqavilə imzalanır və həmin müqavilədə onların hər birinin vəzifə və öhdəlikləri aydın göstərilir. Bu müqavilədə agent bankın təyin edilməsi, bank xidməti, bank xidməti haqqının ödənilməsi, mübahisəli məsələlərin nizamlanması və s. məsələlər tənzimlənir.

Qaydalarda, eyni zamanda müəyyən edilir ki, büdcə təşkilatlarının maliyyələşdirilməsi məqsədilə müvafiq bölüşdürücü nazirlik Sifarişlərini, məxaric cədvəllərini və digər sənədləri Maliyyə Nazirliyinə təqdim edir. Ancaq həmin gün bölüşdürücü nazirlik müxtəlif xərc maddələri üzrə, həmçinin bütövlükdə bütün büdcə təşkilatları üçün maliyyələşmə tələbnaməsi təqdim edir, Maliyyə Nazirliyi isə bu məbləğlərin mövcud büdcə təşkilatlarının rüblük və illik smeta-

sında nəzərdə tutulub tutulmadığını yoxlayır. Burada konkret büdcə təşkilatı üçün təyin olunmuş və Agentliyin yerli xəzinədarlıq orqanlarının ayırdığı vəsait iqtisadi və funksional təsnifata uyğun olaraq paraqraf və bölmələr üzrə göstərilir. Maliyyələşmə üçün tələbnamələr, bir qayda olaraq, ayda bir dəfə, yaxud Malyyə Nazirliyinin müəyyən etdiyi qrafiklər üzrə təqdim olunmalıdır.

Mövcud qanunvericiliyə əsasən Dövlət Xəzinədarlığı Agentliyində daxil olmuş müraciət üzrə aşağıdakı məsələlər yoxlanılır:

- maliyyələşmənin zəruriliyini təsdiq edən sənədlər də daxil olmaqla təsdiq olunmuş bütün sənədlərin düzgün tərtib edilməsi;
- bölüşdürücü nazirliyin tələb etdiyi məbləğin illik və rüblük smeta həddində olması;
- bölüşdürücü nazirliyin tələb etdiyi məbləğin, hər bir büdcə təşkilatı və ya bütövlükdə baş kredit sərəncamı üçün həm iqtisadi, həm də funksional təsnifatın xərc maddələri üzrə nəzərdə tutulması.

Əgər baş kredit sərəncamçısı tərəfindən bu tələblərdən hər hansı biri yerinə yetirilməzsə, onda maliyyələşmə tələbi təxirə salınır. Bütün təsdiqedici sənədlər qanunvericiliyin tələblərinə uyğun tərtib edildikdə maliyyələşdirmə mövcud vəsaitlər həddində yerinə yetirilir. Büdcədə vəsaitlərin mövcud olması barədə Xəzinə Hesab Kitabında kredit qalığı göstərilir. Əgər maliyyələşmənin ümumi məbləği kredit qalığı həddində olarsa, onda maliyyələşdirmə üçün son qərar mövcud və büdcəyə daxilolmaların real vəziyyəti nəzərə alınmaqla qəbul edilir. Əgər maliyyələşmənin ümumi məbləği respublika resurslarının kredit qalığından çox olarsa, onda maliyyələşmə məbləği tələbnamədə kredit qalığında mövcud olan məbləğə qədər azaldılmalıdır.

Maliyyələşmə məbləği müəyyənləşdirildikdən sonra Dövlət Xəzinədarlığı Agentliyi həmin məbləğ həddində yerli xəzinədarlıq orqanlarına və büdcə təşkilatlara xərc maddələri üzrə vəsaitin faktiki bölgüsünü həyata keçirir. Maliyyələşmənin aparılması üçün yerli xəzinədarlıq orqanlarına göndərilən XAKS (Xəzinəarası Köçürmə Sərəncamı) hazırlanmalı və Agentliyin müvafiq Xəzinə Hesab Kitablarında zəruri yazılar edilməlidir. Bir qayda olaraq, XAKS hər bir konkret büdcə təşkilatı üçün hazırlanır.

Hazırki dövrdə büdcənin icrasında maliyyə axınlarının transformasiyasına puldan informasiyaya keçid kimi anlayış vermək olar. Yəni burada mərkəzdə büdcə prosesinin iştirakçılarının öhdəlikləri barədə qeyri-maddi əmlak münasibətləri dayanır.

Dövlət Xəzinədarlığı Agentliyi büdcənin kassa icrasını həyata keçirərkən büdcə xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəlik götürür, bu öhdəliklər çərçivəsində alınmış mal, iş və xidmətləri xəzinə uçotuna qəbul edərək, kassa xərcləri aparır və dövlət büdcəsindən maliyyələşən təşkilatların sifarişi və məxaric cədvəllərinə əsasən onların xərc smetalarında nəzərdə tutulmuş vəsait həddində maliyyələşməsini həyata keçirir.

Büdcə təşkilatları tərəfindən təqdim olunmuş öhdəlik sənədindən sonra Malların, işlərin və xidmətlərin alışı sənədi təqdim olunur ki, bu sənəd vasitəsi

ilə xərc maddələri üzrə öhdəlik götürülmüş əməliyyatlar icra olunaraq (xəzinədarlığın xüsusi elektron proqramına daxil edilməklə) büdcə təşkilatları tərəfindən tərtib olunmuş ödəniş tapşırığında göstərilmiş təyinat və rekvizitlər üzrə köçürülərək xərc əməliyyatı başa çatdırılır.

Bundan başqa büdcə təşkilatları hər hansı bir malların, işlərin və xidmətlərin dəyərini qanunvericiliyin tələblərinə uyğun olaraq müqavilə bağlayıb avans şəklində ödənişi həyata keçirərək, debitor borc yarada bilərlər.

Öhdəlik icra olunduqdan sonra qabaqcadan ödəniş üçün kassa xərclərinin sifarişi sənədini təqdim edərək tərtib olunmuş ödəniş tapşırığında göstərilmiş təyinat və rekvizitlər üzrə köçürərək xərc əməliyylarını qismən başa çatdırırlar. Burada qismən dedikdə o başa düşülür ki, büdcə təşkilatı əməliyyat apardıqdan sonra debitor borc yaranır. Debitor borc yaradılan vaxtı borcun bağlanması üçün müddət başa çatana qədər mallar, işlər və xidmətlər görülür və debitor borcun bağlanılması üçün zəruri təsdiqedici sənədlər Malların, işlərin və xidmətlərin alışı sənədi xəzinə xidməti göstərən xəzinədarlıq orqanına təqdim olunur, debitor borc bağlanır və əməliyyatlar başa çatmış hesab olunur.

Yuxarıda aparılmış təhlillərdən aşkar şəkildə görünür ki, artıq 20 ilə yaxındır ki, Azərbaycan Respublikasında dövlət büdcəsinin icrası prosesində xəzinədarlıq sistemi tətbiq edilir və bu sistemin həyata keçirilməsi üzrə bir sıra hüquqi aktlar qəbul edilmişdir.

Lakin kifayət qədər uzun müddət keçməsini, 2006-cı ildən başlayaraq xəzinədarlığın avtomatlaşdırılması sisteminə keçidi, mərkəzi xəzinədarlıqla yerli xəzinədarlıq orqanları və xəzinədarlıqla bank arasında münasibətlərin elektron bağlantılarla tənzimlənməsini nəzərdə tutan informasiya sisteminin formalaşdırılmasını nəzərə alaraq bu proseslərin çevik şəkildə yeni hüquqi aktlarla əhatə olunması məqsədəuyğundur.

Göstərilənlərdən belə nəticə əldə etmək olar ki, Azərbaycan Respublikasında bütün büdcə təşkilatlarının (o cümlədən, dövlət müəssisələrinə dövlət büdcəsindən ayrılan vəsaitlər üzrə) maliyyə əməliyyatları, habelə onun uçotu vahid qaydada - yalnız dövlət xəzinədarlığı vasitəsilə icra edilir və həmin maliyyə əməliyyatlarının aparılmasında pərakəndəliyin qarşısının alınması, operativ nəzarətin təmin edilməsi baxımından çox mühüm əhəmiyyətə malik olan bu mexanizm müvafiq normativ hüquqi aktlarla ciddi şəkildə tənzimlənsə də, qeyd olunan hüquqi aktların təkmilləşdirilməsinə zərurət vardır.

**ƏDƏBİYYAT VƏ NORMATİV HÜQUQİ AKTLAR**

1. Mirzəyeva A.Q. Maliyyə hüququ. Bakı: Adiloğlu, 2008.
2. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu.
3. Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2009-cu il tarixli, 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi haqqında Əsasnamə".
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli, 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları".
5. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 31 avqust 2000-ci il tarixli İ-136 nömrəli

əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Xəzinədarlıq sisteminin tətbiqi Qaydaları" (II mərhələ).
6. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 28 dekabr 2000-ci il tarixli İ-193 nömrəli əmri ilə təsdiq edilmiş "Büdcədən maliyyələşən kredit sərəncamçıları tərəfindən alınan malların, qəbul olunan iş və xidmətlərin xəzinə uçotu haqqında" və "Dövlət büdcəsinin xərcləri üzrə öhdəliklərin qəbul olunması haqqında" Təlimatları.
7. "Azərbaycan Respublikasında dövlət xəzinədarlığının yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin 4 oktyabr 1995-ci il tarixli 398 nömrəli Fərmanı.
8. Комягин Д.Л. Исполнение федерального бюджета как стадия бюджетного процесса в Российской Федерации : дис. канд. юрид. наук, спец: 12.00.14 / Комягин Дмитрий Львович; Государственный университет – Высшая школа экономики. М., 2005, 178 с.
9. Fərəcov N.İ. Dövlət büdcəsinin xəzinə uçotunun təşkili və onun təkmilləşdirilməsi problemləri (Azərbaycan respublikasinin timsalinda): iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi. 5301.01/ dissertasiyanın avtoreferat. Bakı, 2014.
10. https://portal.dxa.gov.az/?p=userguide

## ПРАВОВЫЕ ОСНОВЫ КАССОВОГО ИСПОЛНЕНИЯ БЮДЖЕТА

**А.О.ГАХРАМАНОВА**

**РЕЗЮМЕ**

В соответствии с Законом Азербайджанской Республики «О бюджетной системе» поступления и выплаты средств государственного бюджета, а также внебюджетные расчеты, операции государственных внебюджетных фондов, операции по кредитам, полученным под государственные гарантии и иные финансовые операции осуществляются через органы государственного казначейства.

**Ключевые слова:** государственное казначейство, государственный бюджет, кассовое исполнение государственного бюджета, бюджетная классификация, финансовые операции, бюджетная организация

## THE LEGAL BASIS OF IN-CASH EXECUTION OF THE STATE BUDGET

**A.O.GAHRAMANOVA**

**SUMMARY**

According on "The law of Azerbaijan Republic on Budget System", the in-cash execution of the State Budget shall be done through the state treasury. To ensure the transparency in the area of state finances, usage of the state treasury shall keep the records of all budget-financed enterprises and organizations' operations in accordance with the relevant norms of recordkeeping.

**Key words:** state treasury, state budget, cash execution, budget classification, financial transactions, budget organization